**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№383/3** **15 dekabr 2025-ci il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci il üzrə icra vəziyyəti barədə**

Azərbaycan Respublikası Prezidentinin “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamının 2.2-ci və müvafiq olaraq Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 5.8-ci bəndlərinə uyğun olaraq Auditorlar Palatası tərəfindən 2025-ci il üzrə yerinə yetirilmiş işlərə dair Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən 2025-ci il üzrə icra vəziyyəti barədə hesabat bəyənilsin (əlavə olunur).
2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov, B.Qasımova) tapşırılsın ki, Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə hesabatın 2026-cı ilin yanvar ayının sonunadək Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına göndərilməsi təmin edilsin.
3. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**